AZCON HOLDING

Müraciət et

# "Rəqəmsal körpü"
# Yay Təcrübə Proqramı

## AZCON Holding şirkətlərində və tərəfdaş müəssisələrdə İT istiqamətində təcrübə proqramı elan edilir!

### Proqram haqqında

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi və AZCON Holding-in birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən proqram İT sahəsində 3-cü və 4-cü kurs (5 illik təhsil proqramlarında isə 4-cü və 5-ci kurs) üzrə bakalavr təhsili alan tələbələrə qazandıqları akademik bilikləri real iş mühitində praktik şəkildə tətbiq etmək imkanı yaradır. 1 iyul – 11 sentyabr 2026-cı il tarixlərini əhatə edən bu proqram çərçivəsində iştirakçılar öz sahələri üzrə təcrübəli mütəxəssislərlə birgə çalışaraq onların bilik və təcrübəsindən faydalanacaq, eyni zamanda peşəkar iş mühitini yaxından tanımaq fürsəti əldə edəcəklər.

Təcrübə dövründə iştirakçılar müxtəlif öyrənmə və inkişaf tədbirlərinə cəlb ediləcək, o cümlədən onlara mentorluq dəstəyi və rəqəmsal tədris platformalarına çıxış imkanları veriləcək.

### Proqram nə vəd edir?

- Biliklərin tətbiqi
- Mentorluq və inkişaf dəstəyi
- Karyera idarəetməsində dəstək
- Aylıq təqaüd

### Seçim mərhələləri:

1. Müraciətlərin proqrama uyğunluğunun ilkin qiymətləndirilməsi
2. İmtahan (Məntiqi təfəkkürün və analitik düşünmə qabiliyyətinin yoxlanılması)
3. Müsahibə

### Necə müraciət etməli?

- QR kodu oxudub veb-sayt linkinə daxil olmaqla;
- hftps://azcon.gov.az/az/internship saytına daxil olaraq müvafiq müraciət platforması vasitəsilə.

Seçim prosesini uğurla keçən hər bir tələbə təhsil müəssisəsindəki akademik göstəriciləri, imtahan və müsahibə nəticələri nəzərə alınmaqla AZCON Holding şirkətlərindən birində və ya Holdinqin seçilmiş tərəfdaş müəssisələrində təcrübəyə cəlb olunacaq. Tələbələrin təcrübə keçdiyi müəssisədən asılı olmayaraq onlara təqdim edilən imtiyaz və imkanlar bərabər əsaslarla təmin ediləcək.

**Son müraciət tarixi: 11.05.2026**

### Peşəkar inkişaf tərəfdaşlarınız:

AZERBAIJAN AIRLINES · ADY Azərbaycan Dəmir Yolları · ASCO · BAKU SHIPYARD · azercosmos · AZTELEKOM · AZINTELECOM · azərpoçt · NAIC National Artificial Intelligence Center · Azercell · AYNA · SMART SOLUTIONS GROUP · BESTCOMP GROUP · SINAM · RISK COMPANY think forward

